*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2014-cü il 29 may tarixli 1/13 saylı Qərarı ilə təsdiq edilmişdir.*

**Bələdiyyə seçkilərində səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyası protokolunun doldurulması qaydasına dair**

# İ Z A H

Bələdiyyə seçkilərində səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyasının protokolunun (bundan sonra – protokol) doldurulması qaydası Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 100-cü, 106-cı və 237-ci maddələrinə, habelə bu İzaha uyğun olaraq müəyyənləşdirilir.

## 1. Ümumi müddəalar

1.1. Seçki məntəqəsi üzrə səsvermənin nəticələri Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası (bundan sonra – Mərkəzi Seçki Komissiyası) tərəfindən təsdiq edilmiş formaya uyğun olan və hər bir nüsxəsi müxtəlif rəngdə olmaqla 3 nüsxədən ibarət karbonlaşdırılmış kağızdan buklet formasında hazırlanmış protokolda (bu İzaha 1 saylı əlavə) əlyazısı qaydasında qeyd olunur.

1.1.1. Protokol yalnız həmin komissiyanın həlledici səs hüquqlu üzvləri tərəfindən tərtib edilməlidir.

1.1.2. Protokol tərtib edilərkən hər bir bəndin məlumatı ayrı-ayrılıqda yazılır, saylar sözlə və rəqəmlə göstərilir. Protokolun 1–6-cı bəndlərindəki məlumatlar seçki qutuları açılmazdan əvvəl yazılır.

1.1.3. Protokolun karandaşla yazılmasına və onda hər hansı bir düzəliş edilməsinə icazə verilmir. Buna görə də, əvvəlcə protokolun **q a r a l a m a** nüsxəsi tərtib edilməlidir.

1.2. Protokolun tərtib edilməsini Seçki Məcəlləsinin 40.2-ci və 40.4-cü maddələrində göstərilən şəxslər (seçki komissiyalarının üzvləri, müvafiq seçki komissiyası üzrə qeydə alınmış namizədlər və onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, habelə müşahidəçi statusu almış Azərbaycan Respublikasının vətəndaşları və beynəlxalq müşahidəçilər) müşahidə edə bilərlər.

## 2. Protokolun doldurulma ardıcıllığı

2.1. Protokol aşağıdakı qaydada doldurulmalıdır:

**2.1.1. Protokolun 1-ci bəndi – seçki məntəqəsi üzrə seçici siyahılarında olan seçicilərin ümumi sayı**

**(1= 1a+1b):**

2.1.1.1. a) seçici siyahısında olan seçicilərin sayı;
2.1.1.2. b) əlavə seçici siyahısında olan seçicilərin sayı;
*1-ci bənddə seçki məntəqəsi üzrə məntəqə seçki komissiyasının seçici siyahısına daxil edilmiş seçicilərin sayı (1a) və səsvermə günü məntəqə seçki komissiyasının qərarı ilə səsvermə hüququ təmin edilmiş şəxslərin adlarının daxil olduğu əlavə seçici siyahısındakı seçicilərin sayı (1b) müvafiq olaraq [daimi (və ya müvəqqəti) və əlavə seçici siyahılarına əsasən] qeyd olunur. Eyni zamanda 1a və 1b yarımbəndlərindəki rəqəmlərin cəmi 1-ci bənddə göstərilən sayı yaratmalı və müvafiq bərabərlik olmalıdır (1=1a+1b).*

**2.1.2. Protokolun 2-ci bəndi – qeydiyyatdan çıxma vəsiqəsi almış seçicilərin sayı**

*(Daimi (və ya müvəqqəti) seçici siyahısına daxil edilmiş, lakin qanunla müəyyən edilmiş müddətdə qeydiyyatdan çıxma vəsiqəsi almış seçicilərin sayı bu bənddə qeyd olunur).*

**2.1.3. Protokolun 3-cü bəndi – dairə seçki komissiyasından məntəqə seçki komissiyasına verilmiş seçki bülletenlərinin sayı**

**(3=4+5+6):**

*(3-cü bəndə dairə seçki komissiyasından məntəqə seçki komissiyasına akt tərtib edilməklə verilmiş seçki bülletenlərinin sayı daxil edilir. Bu rəqəmin daxil edilməsi üçün həmin akt əsas götürülməlidir.*
*Mötərizədə verilmiş hesablamada (3=4+5+6) göstərildiyi kimi, bu bəndin rəqəmi protokolun 4-cü (seçki bülleteni alan seçicilərin sayı), 5-ci (istifadə edilmədən ləğv olunmuş seçki bülletenlərinin sayı) və 6-cı (korlanmış seçki bülletenlərinin sayı) bəndlərinin cəminə bərabər olmalıdır).*

**2.1.4. Protokolun 4-cü bəndi – seçki bülleteni almış seçicilərin sayı (4=4a+4b+4c):**

2.1.4.1. a) səsvermə otağından kənarda;
2.1.4.2. b) səsvermə otağında – seçici siyahılarında [daimi (və ya müvəqqəti) və əlavə seçici siyahısında olan imzaların sayı];
2.1.4.3. c) səsvermə otağında – qeydiyyatdan çıxma vəsiqəsi ilə.
*(Bu yarımbəndlərə seçki məntəqəsi üzrə səsvermə otağından kənarda (4a), səsvermə otağında seçici siyahıları əsasında (4b) və qeydiyyatdan çıxma vəsiqəsi ilə (4c) seçki bülleteni almış seçicilərin sayı daxil edilir. Həmin rəqəmlərin cəmi 4-cü bəndin rəqəmini verir və bu rəqəm müvafiq qrafaya yazılır).*

**2.1.5. Protokolun 5-ci bəndi – istifadə edilmədən ləğv olunmuş seçki bülletenlərinin sayı**

*(İstifadə edilmədən ləğv olunmuş seçki bülletenlərinin sayı bu bəndə müvafiq akt əsasında daxil edilir (istifadə edilməmiş seçki bülletenləri seçki qutuları açılmazdan əvvəl səsvermə otağındakı müşahidəçilərin müşahidəsi ilə məntəqə seçki komissiyasının üzvləri tərəfindən sayılır və aşağı sağ küncü ləğvetmə xəttindən kəsilməklə ləğv edilir. Həmin seçki bülletenlərinin sayı elan edilir və protokolda qeyd olunur. İstifadə edilməmiş bülletenlərin ləğv edilməsi haqqında akt tərtib edilir və həmin bülletenlər ayrıca yığılıb bağlanır)).*

**2.1.6. Protokolun 6-cı bəndi – korlanmış seçki bülletenlərinin sayı**

*(Korlanmış seçki bülletenlərinin sayı müvafiq akt əsasında daxil edilir (seçici hər hansı bir səbəbdən seçki bülletenini korlaması barədə məntəqə seçki komissiyasının üzvünə müraciət edərsə, komissiya üzvü korlanmış bülleteni ortadan kəsməklə ləğv edir, ayrıca zərfə qoyur və bu barədə dərhal akt tərtib edilir. Səsvermə bitdikdən sonra korlanmış seçki bülletenlərinin cəminə dair əlavə akt tərtib edilir və həmin bülletenlər ayrıca yığılıb bağlanır)).*

**2.1.7. Protokolun 7-ci bəndi – seçki qutularında olan seçki bülletenlərinin sayı (müəyyənləşdirilmiş formada olmayan seçki bülletenləri[1] istisna edilməklə)**

**(7=7a+7b); (7 ≤ 4); (7=8+9):**

2.1.7.1. a) daşınan seçki qutusunda **(7a ≤ 4a);**
2.1.7.2. b) daşınmaz seçki qutusunda **(7b ≤ 4b+4c).**

*(Daşınan və daşınmaz seçki qutularından çıxmış müəyyənləşdirilmiş formada olan seçki bülletenlərinin sayı qutuların açılma növbəliliyinə (əvvəlcə daşınan seçki qutusu, sonra isə daşınmaz seçki qutusu(ları)) uyğun olaraq ayrı-ayrılıqda bu bəndin "a" və "b" yarımbəndlərinə daxil edilir).*

*Bu rəqəmlərin cəmi 7-ci bənddəki qrafaya daxil edilməli və onların arasında müvafiq bərabərlik olmalıdır (7=7a+7b). Protokolun 7a yarımbəndindəki rəqəm protokolun 4a yarımbəndindəki rəqəmdən, 7b yarımbəndindəki rəqəm isə 4b və 4c yarımbəndlərindəki rəqəmlərin cəmindən az və ya onlara bərabər olmalıdır. Mötərizədə verilmiş kiçik bərabərlikdə (7 ≤ 4) göstərildiyi kimi, 7-ci bəndin rəqəmi protokolun 4-cü bəndindəki rəqəmdən az və ya ona bərabər olmalıdır. 7-ci bəndin rəqəmi həm də protokolun 8-ci (etibarsız hesab edilmiş seçki bülletenlərinin sayı) və 9-cu (etibarlı hesab edilmiş seçki bülletenlərinin sayı) bəndlərindəki rəqəmlərin cəminə bərabər olmalıdır (7=8+9).*

---

[1] *Səslər hesablanarkən seçki qutularından çıxmış müəyyənləşdirilmiş formada olmayan seçki bülletenləri sayılaraq aktlaşdırılır və həmin akt bu protokola əlavə edilir.*

**Qeyd:** *müəyyənləşdirilmiş formada olan seçki bülletenləri dedikdə, Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi formada hazırlanmış, nömrələnmiş yuxarı sol küncü kəsilmiş və yuxarı sağ küncü müvafiq məntəqə seçki komissiyasının möhürü ilə möhürlənmiş seçki bülletenləri başa düşülür.*

**2.1.8. Protokolun 8-ci bəndi – etibarsız hesab edilmiş seçki bülletenlərinin sayı**
**(namizədlərin soyadlarından sağdakı kvadratlarda heç bir işarə qoyulmamış və ya seçilməli olan bələdiyyə üzvlərinin sayından çox işarə qoyulmuş müəyyənləşdirilmiş formada olan seçki bülletenlərinin sayı)**

*(Bu bənddə yuxarıda göstərilən əsaslara görə, habelə qoyulmuş işarələrdən seçicilərin iradəsinin müəyyənləşdirilməsi mümkün olmadığı üçün etibarsız hesab edilmiş seçki bülletenlərinin sayı göstərilməlidir).*

**2.1.9. Protokolun 9-cu bəndi – etibarlı hesab edilmiş seçki bülletenlərinin sayı**
**(namizədlərin soyadlarından sağdakı kvadratlarda seçilməli olan bələdiyyə üzvlərinin sayına bərabər və ya bu saydan az işarə qoyulmuş müəyyənləşdirilmiş formada olan seçki bülletenlərinin sayı)**

*(Bu bənddə yuxarıda göstərilən əsaslara görə etibarlı hesab edilmiş seçki bülletenlərinin sayı göstərilməlidir).*

**2.1.10. Protokolun 10-cu bəndi – etibarlı hesab edilmiş səslərin sayı (qanunauyğun doldurulmuş müəyyənləşdirilmiş formada olan etibarlı hesab edilmiş seçki bülletenlərindəki səslərin sayı)**

**(10=11):**

*(Bu bənddə müəyyənləşdirilmiş formada olan qanunauyğun doldurulmuş (namizədlərin soyadlarından sağdakı kvadratlarda seçilməli olan bələdiyyə üzvlərinin sayına bərabər və ya bu saydan az işarə qoyulmuş və bu işarələrdən seçicilərin iradəsinin müəyyənləşdirilməsi mümkün olan) seçki bülletenlərindəki səslərin sayı göstərilməlidir. Mötərizədə verilmiş bərabərlikdə (10=11) göstərildiyi kimi, bu bəndin rəqəmi 11-ci (etibarlı hesab edilmiş səslərin bələdiyyə üzvlüyünə namizədlər arasında bölünməsi) bəndinin cəminə bərabər olmalıdır).*

**2.1.11. Protokolun 11-ci bəndi – etibarlı hesab edilmiş səslərin bələdiyyə üzvlüyünə namizədlər arasında bölünməsi**

*(Bu bənddə seçki bülleteninə daxil edilmiş bələdiyyə üzvlüyünə*

*namizədlərin soyadı, adı, atasının adı*[2] *Seçki Məcəlləsinin 237.2.1-ci maddəsinin tələbi nəzərə alınmaqla seçki bülletenindəki ardıcıllıqla, əlifba sırası ilə yazılır və hər namizədin lehinə verilmiş səslərin sayı sözlə və rəqəmlə göstərilir. Seçicilərin etibarlı səslərinin qeydə alınmış namizədlər arasında bölünməsi yalnız protokolun 10-cu bəndində göstərilən etibarlı hesab edilmiş səslərə əsasən həyata keçirilir).*

*Cədvəlin sonunda səslərin cəmi yazılır və bu rəqəm protokolun 10-cu bəndinə (etibarlı hesab edilmiş səslərin sayına) bərabər olmalıdır. Bu sayda bərabərlik olmazsa, protokol etibarsız sayılmalıdır).*

2.2. Protokol tam doldurulub qurtardıqdan sonra doldurulma tarixi və vaxtı həmin protokolda qeyd edilir.

2.3. Səsvermənin nəticələri haqqında yekun protokolu məntəqə seçki komissiyasının həlledici səs hüquqlu üzvlərinin sayının ən azı 2/3-si tərəfindən imzalanır. Protokolun komissiya üzvləri tərəfindən boş və ya tam doldurulmamış halda imzalanması qadağandır. Protokolla bütövlükdə və ya onun ayrı-ayrı hissələri ilə razılaşmayan məntəqə seçki komissiyasının üzvü protokolu imzalayaraq, ona özünün xüsusi rəyini əlavə edə bilər və bu barədə protokolda müvafiq qeyd aparılır.

## 3. Əlavə edilməli olan sənədlərlə birlikdə protokolun dairə seçki komissiyasına təqdim edilməsi

3.1. Aşağıda göstərilən seçki sənədləri Seçki Məcəlləsinin 106.7-ci maddəsinə uyğun olaraq səsvermənin nəticələri üzrə protokola əlavə edilərək dərhal, lakin 24 saatdan gec olmayaraq məntəqə seçki komissiyasının sədrinin və müxtəlif siyasi qüvvələri təmsil edən iki üzvünün və müşahidəçilərin müşayiəti ilə dairə seçki komissiyasına göndərilir:

3.1.1. məntəqə seçki komissiyası protokolunun 1-ci nüsxəsi;

3.1.2. səsvermə günü məntəqə seçki komissiyasına seçki hüquqlarının pozulması ilə əlaqədar daxil olmuş şikayətlər (ərizələr) və bunlar üzrə məntəqə seçki komissiyasının qəbul etdiyi qərarlar;

3.1.3. bələdiyyə seçkilərində seçki bülletenlərinin dairə seçki komissiyasından məntəqə seçki komissiyasına verilməsi haqqında akt (İzaha 2 saylı, "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) seçki bülletenlərinin (referendum üzrə səsvermə bülletenlərinin), dairə və məntəqə seçki komissiyalarının səsvermə protokollarının və səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqələrinin hazırlanması və müvafiq seçki komissiyalarına verilməsi qaydaları haqqında" Təlimata 8 saylı əlavə);

3.1.4. bələdiyyə seçkilərində istifadə edilməmiş seçki bülletenlərinin ləğv edilməsi haqqında akt (İzaha 3 saylı əlavə);

---

[2] *Seçki bülleteninə daxil edilmiş namizədlərin soyadı, adı, atasının adı eyni olduqda, onların doğulduqları il, ay, gün də göstərilməlidir.*

3.1.5. bələdiyyə seçkilərində istifadə edilməmiş səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqələrinin ləğv edilməsi haqqında akt (İzaha 4 saylı əlavə);

3.1.6. bələdiyyə seçkilərində seçki bülletenlərinin kəsilmiş sol künclərinin sayı haqqında akt (İzaha 5 saylı əlavə);

3.1.7. bələdiyyə seçkilərində səs verən vətəndaşların səhvi üzündən korlanmış seçki bülletenlərinin sayı haqqında akt (İzaha 6 saylı əlavə);

3.1.8. bələdiyyə seçkilərində səsvermə otağından kənarda səs vermək üçün seçicilərin ərizələri ilə əlaqədar götürülmüş, istifadə edilmiş və istifadə edilmədən geri qaytarılmış seçki bülletenlərinin sayı haqqında akt (İzaha 7 saylı əlavə);

3.1.9. seçki bülletenləri;

3.1.10. məntəqə üzrə seçici siyahıları [(qeydiyyatdan çıxma (səsvermə) vəsiqələri əlavə olunmaqla)].

3.2. 3.1.4 – 3.1.8-ci bəndlərdə göstərilən aktlar məntəqə seçki komissiyasının sədri və katibləri tərəfindən imzalanır.

3.3. Şikayətlərin (ərizələrin), məntəqə seçki komissiyası qərarlarının və yuxarıda adları çəkilən aktların təsdiq edilmiş surətləri protokolun 2-ci nüsxəsinə tikilir.

**Qeyd:** *protokol tərtib edilərkən ehtiyatsızlıqdan həmin protokolda hər hansı bir xətaya (məlumatların səhv daxil edilməsi, pozulma, qaralama və s.) yol verilmişdirsə, məntəqə seçki komissiyası həmin halı öz qərarı ilə rəsmiləşdirərək buna dair müvafiq akt tərtib etməli, protokolu həmin aktla birlikdə qanunda nəzərdə tutulmuş müddət ərzində dairə seçki komissiyasına təqdim etməlidir.*

## 4. Yekun müddəa

4.1. Bu İzah qüvvəyə mindiyi gündən Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2009-cu il 24 avqust tarixli, 23-8 saylı Qərarı ilə təsdiq edilmiş "Bələdiyyə seçkilərində səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyasının protokolunun doldurulması qaydaları haqqında İzah" qüvvədən düşmüş hesab edilir.

*İzaha 1 saylı əlavə*

**AZƏRBAYCAN RESPUBLİKASINDA BƏLƏDİYYƏ SEÇKİLƏRİ**

“____” _____________ 20 ___ il

_____ saylı ______________________________ seçki dairəsinin
*(seçki dairəsinin adı)*
_____ saylı seçki məntəqəsi üzrə
______________________________ bələdiyyəsinə seçkilərdə
*(bələdiyyənin adı)*

**səsvermənin nəticələri haqqında**
**məntəqə seçki komissiyasının**

# P R O T O K O L U

______________________________________________________________
*(seçki məntəqəsinin olduğu yer – muxtar respublika, şəhər, rayon, şəhərdə rayon, qəsəbə, kənd)*

Məntəqə seçki komissiyası səslərin hesablanması nəticəsində müəyyən etmişdir:

1. Məntəqə üzrə seçici siyahılarında olan seçicilərin ümumi sayı **(1=1a+1b):**

______________________________________________ [ ]
*(sözlə)* *(rəqəmlə)*

a) seçici siyahısında olan seçicilərin sayı

______________________________________ [ ]
*(sözlə)* *(rəqəmlə)*

b) əlavə seçici siyahısında olan seçicilərin sayı

______________________________________ [ ]
*(sözlə)* *(rəqəmlə)*

2. Qeydiyyatdan çıxma vəsiqəsi almış seçicilərin sayı

______________________________________________ [ ]
*(sözlə)* *(rəqəmlə)*

3. Dairə seçki komissiyasından məntəqə seçki komissiyasına verilmiş seçki bülletenlərinin sayı **(3=4+5+6)**

______________________________________________ [ ]
*(sözlə)* *(rəqəmlə)*

4. Seçki bülleteni alan seçicilərin sayı **(4=4a+4b+4c):**

____________________________________________ [ ]

*(sözlə)* *(rəqəmlə)*

a) səsvermə otağından kənarda

______________________________________ [ ]

*(sözlə)* *(rəqəmlə)*

b) səsvermə otağında – *seçici siyahıları əsasında [daimi (və ya müvəqqəti) və əlavə seçici siyahılarında olan imzaların sayı]*

______________________________________ [ ]

*(sözlə)* *(rəqəmlə)*

c) səsvermə otağında – qeydiyyatdan çıxma vəsiqəsi ilə

______________________________________ [ ]

*(sözlə)* *(rəqəmlə)*

5. İstifadə edilmədən ləğv olunmuş seçki bülletenlərinin sayı

____________________________________________ [ ]

*(sözlə)* *(rəqəmlə)*

6. Korlanmış seçki bülletenlərinin sayı

____________________________________________ [ ]

*(sözlə)* *(rəqəmlə)*

7. Seçki qutularında olan seçki bülletenlərinin sayı *(müəyyənləşdirilmiş formada olmayan seçki bülletenləri*[1] *istisna edilməklə)* **(7=7a+7b);(7≤4); (7=8+9):**

____________________________________________ [ ]

*(sözlə)* *(rəqəmlə)*

a) daşınan seçki qutusunda **(7a≤4a)**

______________________________________ [ ]

*(sözlə)* *(rəqəmlə)*

b) daşınmaz seçki qutusunda **(7b≤4b+4c)**

______________________________________ [ ]

*(sözlə)* *(rəqəmlə)*

8. Etibarsız hesab edilmiş seçki bülletenlərinin sayı *(namizədlərin soyadlarından sağdakı kvadratlarda heç bir işarə qoyulmamış və ya seçilməli olan bələdiyyə üzvlərinin sayından çox işarə qoyulmuş müəyyənləşdirilmiş formada olan seçki bülletenlərinin sayı)*

____________________________________________ [ ]

*(sözlə)* *(rəqəmlə)*

[1] Səslər hesablanarkən seçki qutularından çıxmış müəyyənləşdirilmiş formada olmayan seçki bülletenləri sayılaraq aktlaşdırılır və həmin akt bu protokola əlavə edilir.

9. Etibarlı hesab edilmiş seçki bülletenlərinin sayı *(namizədlərin soyadlarından sağdakı kvadratlarda seçilməli olan bələdiyyə üzvlərinin sayına bərabər və ya bu saydan az işarə qoyulmuş müəyyənləşdirilmiş formada olan seçki bülletenlərinin sayı)*

________________________________________ [ ]

*(sözlə)* *(rəqəmlə)*

10. Etibarlı hesab edilmiş səslərin sayı *(qanunauyğun doldurulmuş müəyyənləşdirilmiş formada olan seçki bülletenlərindəki səslərin sayı)* **(10=11)**

________________________________________ [ ]

*(sözlə)* *(rəqəmlə)*

11. Etibarlı hesab edilmiş səslərin bələdiyyə üzvlüyünə namizədlər arasında bölünməsi:

| Sıra sayı | Seçki bülleteninə daxil edilmiş namizədlərin soyadı, adı, atasının adı[3] (əlifba sırası ilə) | Hər bir namizədin lehinə verilmiş səslərin sayı | |
|---|---|---|---|
| | | sözlə | rəqəmlə |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | Cəmi: | | |

[3] Seçki bülleteninə daxil edilmiş namizədlərin soyadı, adı, atasının adı eyni olduqda, onların doğulduqları il, ay və gün də göstərilməlidir.

**Komissiyanın *<u>sədri</u>*** ________________________________________ ________________
*(soyadı, adı, atasının adı)* *(imza)*

**Komissiyanın katibi** ________________________________________ ________________
*(soyadı, adı, atasının adı)* *(imza)*

**Komissiyanın katibi** ________________________________________ ________________
*(soyadı, adı, atasının adı)* *(imza)*

**Komissiyanın üzvləri** ________________________________________ ________________
*(soyadı, adı, atasının adı)* *(imza)*

________________________________________ ________________
*(soyadı, adı, atasının adı)* *(imza)*

________________________________________ ________________
*(soyadı, adı, atasının adı)* *(imza)*

M.Y.

Protokol 20 ___ il ___________________ -da(də) saat ____-da(də) tərtib edilmişdir.

Komissiyanın həlledici səs hüquqlu üzvünün xüsusi rəyi haqqında qeyd: _________

__________________________________________________________________________________

__________________________________________________________________________________

__________________________________________________________________________________

__________________________________________________________________________________

__________________________________________________________________________________

__________________________________________________________________________________

__________________________________________________________________________________

_______________________________________________________________

____________________________________________________ __________________
*(soyadı, adı, atasının adı)* *(imza)*

**Q e y d l ə r:**

*Protokol məntəqə seçki komissiyasının həlledici səs hüquqlu üzvləri tərəfindən tərtib edilir və imzalanır. Məntəqə seçki komissiyasının protokolla bütövlükdə və ya onun ayrı-ayrı hissələri ilə razılaşmayan üzvü protokola xüsusi rəyini əlavə edə bilər və bu barədə protokolda müvafiq qeyd aparılır.*

*Protokolda düzəlişlər edilməsinə icazə verilmədiyinə görə əvvəlcə protokolun qaralama nüsxəsini tərtib etmək məqsədəuyğundur.*

*Protokolun karandaşla yazılmasına icazə verilmir.*

*İzaha 2 saylı, "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) seçki bülletenlərinin (referendum üzrə səsvermə bülletenlərinin), dairə və məntəqə seçki komissiyalarının səsvermə protokollarının və səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqələrinin hazırlanması və müvafiq seçki komissiyalarına verilməsi qaydaları haqqında" Təlimata 8 saylı əlavə*

**Azərbaycan Respublikasında keçirilən ______________________________**
*(seçkinin (referendumun) adı)*
**üzrə seçki bülletenlərinin (referendum üzrə səsvermə bülletenlərinin) dairə seçki komissiyasından məntəqə seçki komissiyasına verilməsi haqqında**

**A K T**

___________________________________ "_____"___________20_____il
*(rayon, şəhər, şəhərdə rayon, qəsəbə, kənd)*

Saat __________

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 99.6-cı maddəsinə uyğun olaraq ____ saylı ___________________________ seçki dairəsinin dairə seçki komissiyası tərəfindən
*(seçki dairəsinin adı)*
həmin seçki dairəsinin _____ saylı seçki məntəqəsi üzrə seçicilər siyahısındakı seçicilərin ümumi sayına uyğun olaraq həmin saydan 90 (doxsan) faizdən az, 0,5 faizdən artıq olmamaqla _________ nömrədən _______ nömrəyədək ____________________________
*(sözlə)*
__________________ nüsxə seçki bülleteni (referendum üzrə səsvermə bülleteni), cəmi
*(rəqəmlə)*
________________________________ ____________ ədəd seçki bülleteni (referendum
*(sözlə)* *(rəqəmlə)*
üzrə səsvermə bülleteni) müvafiq məntəqə seçki komissiyasına verildi.

**Dairə seçki komissiyasının sədri** ________ ____________________
*(imza)* *(inisialı və soyadı)*

M.Y.

**Məntəqə seçki Komissiyasının sədri** _________ __________________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki komissiyasının katibi** _________ __________________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki komissiyasının katibi** _________ __________________
*(imza)* *(inisialı və soyadı)*

M.Y.

**Qeyd:** *Referendum keçirilərkən bu sənəd nümunəsində seçki komissiyaları müvafiq olaraq referendum komissiyaları kimi göstərilməlidir.*

*İzaha 3 saylı əlavə*

**Bələdiyyə seçkilərində istifadə edilməmiş seçki bülletenlərinin ləğv edilməsi haqqında**

**A K T**

______________________________ "___" ________ 20____ il
*(rayon, şəhər, şəhərdə rayon, qəsəbə, kənd)*

Saat________

Biz, aşağıda imza edənlər, həmin aktı ona görə tərtib etdik ki, bələdiyyə seçkilərində seçki günü ____ saylı ___________________________
*(seçki dairəsinin adı)*
____________________ seçki dairəsinin _____ saylı seçki məntəqəsi üzrə

məntəqə seçki komissiyası tərəfindən ________________________________
*(sözlə)*
________________________ ədəd istifadə edilməmiş seçki bülleteni məntəqə
*(rəqəmlə)*
seçki komissiyasında qanunla müəyyən olunmuş qaydada ləğvetmə xəttindən kəsilməklə ləğv edilmişdir.

**Məntəqə seçki komissiyasının sədri** _____________ _____________________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki komissiyasının katibi** _____________ _____________________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki komissiyasının katibi** _____________ _____________________
*(imza)* *(inisialı və soyadı)*

M.Y.

*İzaha 4 saylı əlavə*

**Bələdiyyə seçkilərində istifadə edilməmiş səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqələrinin ləğv edilməsi haqqında**

**A K T**

____________________________ “___” ________ 20 __ il
*(rayon, şəhər, şəhərdə rayon, qəsəbə, kənd)*

Saat ________

Biz, aşağıda imza edənlər, həmin aktı ona görə tərtib etdik ki, ______ saylı ________________________________________ seçki dairəsinin dairə
*(seçki dairəsinin adı)*
seçki komissiyasından həmin dairənin _________ saylı seçki məntəqəsinin

məntəqə seçki komissiyasına verilmiş ______________________________
*(sözlə)*
___________ ədəd səsvermə vəsiqəsindən ________________________
*(rəqəmlə)* *(sözlə)*
___________ ədədi seçicilərə təqdim edilmişdir.
*(rəqəmlə)*

İstifadə edilməmiş ___________________________ __________________
*(sözlə)* *(rəqəmlə)*
ədəd qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsi yarı kəsilməklə ləğv olunmuşdur.

**Məntəqə seçki komissiyasının sədri** ____________ _________________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki komissiyasının katibi** ____________ _________________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki komissiyasının katibi** ____________ _________________
*(imza)* *(inisialı və soyadı)*

M.Y.

*İzaha 5 saylı əlavə*

**Bələdiyyə seçkilərində seçki bülletenlərinin kəsilmiş sol künclərinin sayı haqqında**

**A K T**

______________________________ “___" ___________ 20___ il
*(rayon, şəhər, şəhərdə rayon, qəsəbə, kənd)*

Saat ____________

Biz, aşağıda imza edənlər, həmin aktı ona görə tərtib etdik ki, __________ saylı_______________________________________________seçki dairəsinin
*(seçki dairəsinin adı)*
_______ saylı seçki məntəqəsinin məntəqə seçki komissiyası tərəfindən seçki bülletenlərinin kəsilmiş sol küncləri sayılmış, onların sayının ______________________________ _____________ ədəd olduğu müəyyən
*(sözlə)* *(rəqəmlə)*

edilmiş və kəsilmiş künclər zərfə qoyulmuşdur.

**Məntəqə seçki komissiyasının sədri** _______________ ____________________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki komissiyasının katibi** _______________ ____________________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki komissiyasının katibi** _______________ ____________________
*(imza)* *(inisialı və soyadı)*

M.Y.

*İzaha 6 saylı əlavə*

**Bələdiyyə seçkilərində səs verən vətəndaşların səhvi üzündən korlanmış seçki bülletenlərinin sayı haqqında**

**A K T**

____________________________ "___" ___________ 20____ il
*(rayon, şəhər, şəhərdə rayon, qəsəbə, kənd)*

Saat ________

Biz, aşağıda imza edənlər, həmin aktı ona görə tərtib etdik ki, _______ saylı ________________________________ seçki dairəsinin ____________
*(seçki dairəsinin adı)*
saylı seçki məntəqəsində səsvermə zamanı seçicilərin səhvi üzündən ______

________________________________________ ___________________
*(sözlə)* *(rəqəmlə)*
ədəd seçki bülleteni korlanıb sıradan çıxmış və həmin bülletenlər zərfə qoyularaq, ayrıca yığılıb bağlanmışdır.

**Məntəqə seçki komissiyasının sədri** ______________ ___________________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki komissiyasının katibi** ______________ ___________________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki komissiyasının katibi** ______________ ___________________
*(imza)* *(inisialı və soyadı)*

M.Y.

***Qeyd***: *bu akt seçicinin səhvi üzündən korlanmış hər bir seçki bülleteninə dair tərtib edilən aktların cəmi əsasında tərtib olunur.*

*İzaha 7 saylı əlavə*

**Bələdiyyə seçkilərində səsvermə otağından kənarda səs vermək üçün seçicilərin ərizələri ilə əlaqədar götürülmüş, istifadə edilmiş və istifadə edilmədən geri qaytarılmış seçki bülletenlərinin sayı haqqında**

**A K T**

______________________________ "___" ___________ 20_____ il
*(rayon, şəhər, şəhərdə rayon, qəsəbə, kənd)*

Saat ________

Biz, aşağıda imza edənlər, həmin aktı ona görə tərtib etdik ki, ______ saylı ____________________________________________ seçki dairəsinin ______
*(seçki dairəsinin adı)*
saylı seçki məntəqəsi üzrə səsvermə günü səsvermə otağından kənarda səs vermək üçün __________________________________ ___________________
*(sözlə)* *(rəqəmlə)*
ədəd seçki bülleteni götürülmüş, həmin bülletenlərin _____________________
*(sözlə)*
_______________ ______________ ədədi istifadə edildikdən sonra, ________
*(rəqəmlə)* *(sözlə)*
_____________________ _________________ədədi istifadə edilmədən geri
*(rəqəmlə)*
qaytarılmışdır.

**Məntəqə seçki komissiyasının sədri** _______________ ____________________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki komissiyasının katibi** _______________ ____________________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki komissiyasının katibi** _______________ ____________________
*(imza)* *(inisialı və soyadı)*

M.Y.